Azərbaycan Respublikasının Səfirliyi
Cakarta

Jl. Mas Putih Blok D Persil 29
Grogol Utara Kebayoran Lama
Jakarta Selatan 12210
Tel. : 549 19 39
Fax : 549 17 45
E-mail: azerbembjkt@u.net.id

# Press-reliz

Koreya Respublikası Prezidentinin dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Koreyaya üç günlük rəsmi səfərdədir. Keçən ilin mayında Koreya Respublikasının Prezidenti Roh Moo-hyun Azərbaycana rəsmi səfər etmişdir.

23 aprel 2007-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev Koreya Prezidenti Roh Moo-hyun ilə görüşü zamanı müxtəlif ikitərəfli və çoxtərəfli məsələləri müzakirə etmişdir. İki ölkə başçısı siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsinə dair Birgə Bəyannamə imzalamışlar.

Bəyannamədə iki ölkə arasında viza rejiminin sadələşdirilməsi, sərmayə qoyuluşu təminatı və ikiqat vergitutmanın aradan qaldırılması barədə sazişlərin imzalanması Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyünə Cənubi Koreyanın dəstəyi məsələləri öz əksini tapmışdır.

Bu gün səfər çərçivəsində biznes forum keçirilir.

Səfər zamanı Aşağıdakı Saziş və Anlaşma Memorandumları imzalanmışdır:

- Sərmayələrin təşviqi və qorunması haqqında
- Azərbaycanda Elektron hökumətin təsis edilməsi sahəsində əməkdaşlıq haqqında
- intellektual nəqliyyat sistemi sahəsində əməkdaşlıq haqqında
- fövqəladə halların idarə olunması sahəsində əməkdaşlıq
- energetika sahəsində əməkdaşlıq haqqında

24 aprel 2007-ci il